# Polad Bülbüloğlu II Ermitaj Mükafatının laureatı olub

**Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfiri Polad Bülbüloğlu Sankt-Peterburq Beynəlxalq Birləşmiş Mədəniyyətlər Forumunun təşkilat komitəsi və Dövlət Ermitaj Muzeyi tərəfindən təsis edilən II Ermitaj Mükafatının laureatı olub.**

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Federasiyası Hökuməti sədrinin müavini Tatyana Qolikova məlumat verib.

Rusiya rəsmisi mətbuat konfransında deyib: "Xarici mədəniyyət xadimi kimi sizlərin də yaxşı tanıdığı, Sovet İttifaqının qızıl səsi, Azərbaycanın Rusiya Federasiyasındakı səfiri Polad Bülbüloğlu, Rusiya tərəfdən isə tanınmış ad Boris Yakovleviç Eyfman II Ermitaj Mükafatının laureatlarıdır".

Azərbaycan.- 2024.- 7 sentyabr (№194).- S.11.